***İslam Əməkdaşlıq Təşkilatına üzv dövlətləri təmsil edən 9 nəfərlik media qrupunun Azərbaycana səfəri başa çatıb. Martın 11-dən 15-dək ölkəmizdə olmuş ərəbdilli jurnalist və media mütəxəssisləri Azərbaycanın işğaldan azad edilmiş Ağdam, Füzuli və Şuşa rayonlarına səfər etmiş, erməni işğalçılarının 30 il müddətində Qarabağda törətdikləri dəhşətli vandalizmlə və Azərbaycan dövlətinin bölgədə apardığı irimiqyaslı bərpa-quruculuq işləri ilə yerində tanış olmuşlar.***



# Qarabağda erməni vandalizmi ərəbdilli jurnalistləri dəhşətə gətirib

**Qonaqların səfər proqramının rəhbəri, İslam Əməkdaşlıq Təşkilatına üzv Dövlətlərin Jurnalistlər Assosiasiyasının sədri Fazil Abbasov qəzetimiz üçün açıqlamasında bildirdi:**

– Qrupa daxil olan jurnalistlər buvaxtadək öz ölkələrində Qarabağ müharibəsini geniş işıqlandırmış, münaqişənin tarixinə yaxından bələd olan qələm sahibləri idilər. Onların əksəriyyəti II Qarabağ münaqişəsi zamanı ərəbdilli media qurumlarında ölkəmizə informasiya dəstəyi vermiş jurnalistlər idilər. Həmin həmkarlarımızın işğaldan azad edilmiş bölgəni öz gözləri ilə görmək arzusunu nəzərə alaraq belə bir səfər təşkil edildi.

Əvvəl Ağdamda olduq. Tamamilə dağıdılmış, nəhəng xarabalığa çevrilmiş şəhərin müdhiş mənzərəsi qonaqları dəhşətə gətirdi. Xarici həmkarlarımız Füzuli və Şuşada da eyni əhvalı yaşadılar. İslam dini və mədəniyyəti abidələrinin xüsusi amansızlıqla məhv edilməsi və təhqir olunması qonaqlara sarsıdıcı təsir bağışladı. Onlar biləndə ki, Qarabağda təkcə tarixi-dini irsin dağıdılması ilə ölkəmizə 190 milyard manatdan çox ziyan vurulub, mütləq bunun cavabının verilməli olduğunu qeyd etdilər, erməni vandalizmini bir daha lənətlədilər.

Bakıda Hərbi Qənimətlər Parkı ilə tanışlıq qonaqlarda xalqımızın Qarabağ zəfərinin əzəməti, düşmənin qəddarlığı və insanlığa düşmən olması barədə ətraflı təəssürat yaratdı. "İrşad" İslam Araşdırmaları Mərkəzində keçirilən görüşün də əsas mövzusu Ermənistan işğalçılarının xalqımızın başına gətirdiyi müsibətlər və Qarabağda törətdikləri vəhşiliklər oldu. Mərkəzin direktoru, professor Rafiq Əliyev Qarabağ münaqişəsinin mahiyyəti barədə xarici jurnalistlərə önəmli məqamları xatırlatdı, bu məsələdə İslam Əməkdaşlıq Təşkilatının ölkəmizə davamlı dəstəyini məmnunluqla vurğuladı. Professor ölkələrimiz arasında elmi-mədəni və media sahəsində əlaqələrin bundan sonra da davam etdirilməsinin zəruriliyini söylədi.

İslam ölkələri ilə media əlaqələrinin baş təşkilatçısı sayılan AZƏRTAC-da da görüş mehribanlıq və qarşılıqlı maraq şəraitində keçdi. Agentliyin ərəb ölkələrinin nüfuzlu media qurumları ilə sıx əməkdaşlıq yaratdığını qonaqların nəzərinə çatdıran AZƏRTAC-ın İdarə Heyətinin sədri Aslan Aslanov bildirdi ki, müharibə günlərində İslam ölkələrinin jurnalistləri Azərbaycanın haqq işi barədə obyektiv məlumatlar yayaraq ölkəmizə geniş informasiya dəstəyi göstəriblər. Agentliyin İslam Əməkdaşlıq Təşkilatı ölkələrinin Milli Xəbər Agentlikləri Birliyinin (UNA) İcraiyyə Şurasının üzvü olaraq bu təşkilatda birləşən bir çox KİV ilə yaxından əməkdaşlıq etməsi barədə məlumat xarici həmkarlarımızda xoş əhval yaratdı.

İraqlı professor Mutəzz Muhy Əbdülhəmid görüşdə bildirdi ki, Azərbaycanın Vətən müharibəsində qələbəsi onun xalqını çox sevindirdi. O özü isə Qarabağ məsələsinin işıqlandırılması üçün İraq mətbuatında çoxsaylı məqalələrlə çıxış edib. Media mütəxəssisi həmin mövzuda bir neçə toplu nəşr etdirib və səfər zamanı yeni kitabı üçün geniş material toplayıb.

Misirin "əl-Diplomasi" elektron qəzetinin baş redaktoru Əşrəf Əbu Arafə artıq bir neçə ildir ki, AZƏRTAC ilə əməkdaşlıq etdiklərini, agentliyin xəbərlərini operativ şəkildə dünyaya çatdırdıqlarını söylədi.

İslam Əməkdaşlıq Təşkilatı ölkələrinin Milli Xəbər Agentlikləri Birliyi xarici əlaqələr və strateji inkişaf üzrə direktoru Yunus İnayət isə səfərin önəmini vurğulayaraq bundan sonra da Azərbaycana informasiya dəstəyi göstərəcəklərini söylədi. Mərakeşin MAP informasiya agentliyinin əməkdaşı Xalid əl-Hərrak işğaldan azad edilən ərazilərə səfər zamanı gördüklərinin insanlıqla bir araya sığmadığını qeyd etdi, bütün bunları öz ölkəsinin əhalisinə çatdıracağını bildirdi.

**İƏTD JA-nın sədri Fazil Abbasov sonda dedi:**

– Ərəbdilli jurnalistlər ölkəmizdə olduqları günlərdə erməni millətçilərinin və onların Avropadakı havadarlarının daha bir həyasız aksiyasını – guya, Azərbaycanın erməni mədəni irsini dağıtması barədə əsassız yalanını kəskin ittiham etdilər. Onlar Avropa İttifaqının bu mövzuda bədnam qətnaməsini ikili standart göstəricisi kimi dəyərləndirdilər və ölkələrimizi belə diplomatik qəsdlərdən qorumaq üçün birgə mübarizənin vacibliyini qeyd etdilər.

Qonaqlar ölkəmizdən Azərbaycanın hərtərəfli inkişafından doğan dost sevinci ilə ayrıldılar.

*Hazırladı:*
***Tahir AYDINOĞLU,***
***"Xalq qəzeti"***

Xalq qəzeti.- 2022.- 15 mart.- S.4.